

**Bədəlov Oqtay Əlǝddin oğlu**

Oqtay Ələddin oğlu Bədəlov 27 oktyabr 1984-cü ildə Tovuz rayonunun Çeşməli kəndində anadan olub. 1991-2002-ci illərdə Çeşməli kənd tam orta məktəbində təhsil alıb.

Oqtay Bədəlov 2003-2005-ci illərdə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətdə olub. Xidmətini başa vurduqdan sonra öz ərizəsi ilə həmin hərbi xidmətdə gizir kimi xidmətini davam etdirib. 2016-cı il Aprel döyüşlərində, 2020-ci ilin iyulunda Tovuz döyüşlərində iştirak edib.

Azərbaycan Ordusunun baş giziri olan Oqtay Bədəlov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan Vətən müharibəsi zamanı Murovdağın, Cəbrayılın, Xocavəndin və Qubadlının azadlığı uğrunda gedən döyüşlərdə iştirak edib. Oqtay Bədəlov oktyabrın 27-də Qubadlı döyüşləri zamanı şəhid olub. Tovuz rayonunun Çeşməli kəndində dəfn olunub.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamları ilə "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları və "Azərbaycan Bayrağı" ordeni ilə təltif edilib.